GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

AFFA Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

AMF

**"Təsdiq edirəm"**
**Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini**

____________ M. Vasileva

"09" dekabr 2024-cü il

**"Razılaşdırılıb"**
**Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının İcraçı vitse-prezidenti**

____________ S. Hacıyev

"____" ________ 2024-cü il

**"Təsdiq edirəm"**
**Azərbaycan Minifutbol Federasiyasının vitse-prezidenti**

____________ T. Nəsibov

"____" ________ 2024-cü il

**Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında 3-cü minifutbol turniri**
**13 dekabr 2024 - 10 may 2025**

# DƏVƏTNAMƏ

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Azərbaycan Minifutbol Federasiyası Sizi Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında 3-cü minifutbol turnirində iştirak etməyə dəvət edir.**

| | |
|---|---|
| **YERLİ TƏŞKİLAT KOMİTƏSİ** | Təşkilatın adı: Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi<br>Əlaqədar şəxs: Əhmədli Cavidan Elşən oğlu<br>Ünvan: Olimpiya küçəsi 4.<br>Tel: +994507455996<br>E-poçt: info@mys.gov.az |
| **TƏŞKİLATIN NÜMAYƏNDƏSİ** | Elçin Qasımov |
| **İDMAN NÖVÜ** | Minifutbol |
| **MƏKAN** | <br>"Azfar" minifutbol meydançaları |
| **TARİX** | Başlama tarixi: 13.12.2024<br>Bitmə tarixi: 10.05.2025 |

| | |
|---|---|
| **DƏVƏT OLUNANLAR** | • Yarışda Dövlət qurumlarını təmsil edən minifutbol komandaları iştirak edirlər. Hər qurumdan yalnız 1 kom<br>• Təşkilatın sifarişində iştirakçının adı, soyadı, təvəllüdü, vəzifəsi, təmsil etdiyi təşkilatın adı, həkimin imzası, möhürü ilə təsdiq edilmiş sağlamlıq haqqında qeyd göstərilməlidir və təşkilatın möhürü ilə təsdiq edilməlidir. Bundan başqa, hər oyunçuya dair "mygov" elektron sənəd portalından çıxarış təqdim olunmalıdır.<br>• Yalnız təmsil etdiyi qurumda çalışan əməkdaşlar (sifariş olunan oyunçular təmsil etdiyi qurumda 01.05.2024-cü il tarixə kimi işə götürülən əməkdaşlar olması şərti ilə) sifariş vərəqəsində qeyd oluna bilər. |
| **YARIŞ ZALI, AVADANLIQ VƏ LƏVAZİMATLAR** | Yarışa dair avadanlıq və ləvazimatlar AFFA və AMF tərəfindən tənzimlənir. |
| **İLKİN CƏDVƏL** | Turnir 13 dekabr 2024 – 10 may 2025-ci il tarixləri ərzində hər həftənin şənbə və bazar günlər saat 10:00 - 15:00 aralığında keçirilir. |
| **YARIŞIN FORMATI** | • İlkin mərhələdə püşkatma vasitəsi ilə komandalar A, B, C və D qruplarında mübarizəyə başlayır. Hər qrupda 10 komandanın iştirak edəcəyi ilkin mərhələ 1 dövrədən ibarət (ümumi 9 tur) olur. Bu mərhələdə ilk 8 yeri tutan komandalar ilkin mərhələnin "Play-off"una vəsiqə qazanır.<br>• İlkin mərhələ "Play-off"unda 32 komanda iştirak edir. 1 oyundan ibarət bu mərhələdə qalib komandalar (16 komanda) turnirin ikinci mərhələsinə vəsiqə qazanır. İkinci mərhələdə komandalar A, B, C və D qruplarında mübarizəyə başlayır. Hər qrupda 4 komandanın iştirak edəcəyi ikinci mərhələ 1 dövrədən ibarət (ümumi 3 tur) olur. Bu mərhələdə ilk iki yeri tutan komanda 1/4 finala vəsiqə qazanır. 4 komanda ilk olaraq yarımfinalda qarşılaşır. Yarımfinal oyununun qalibləri final oyununa vəsiqə qazanır. Məğlub komandalar 3-cü yer uğrunda mübarizə aparır. 1/4 final, yarımfinal və final oyunları bir oyundan ibarət olur.<br>• Oyunun qalibinə 3 xal, heç-heçə olduğu halda hər iki komandaya 1 xal verilir.<br>• Oyunlar həftənin şənbə və bazar günləri 10:00 - 15:00 aralığında keçiriləcək.<br>• Oyunların keçirilmə müddəti yarışın təqvimi ilə müəyyən olunur. Oyunlar iki hissədən ibarətdir. Hər hissə 20 (iyirmi) dəqiqə, hissələrarası fasilə isə 5 (beş) dəqiqədir (komandalara hər hissədə 1 dəfə olmaqla 1 dəqiqəlik "TİME OUT" götürmək imkanı verilir). Oyunçuların əvəzedilməsi matçın protokolunda adları göstərilmiş futbolçularla limitsiz sayda həyata keçirilir. |
| **NÜMAYƏNDƏ HEYƏTİNİN TƏRKİBİ** | Komandaların tərkibi 12 idmançı və 1 məşqçidən ibarət olmalıdır. |
| **YAŞ QRUPU** | Dövlət qurumlarının əməkdaşları |
| **HAKİMLƏR BRİQADASI** | Turnirin oyunlarını AFFA-nın Hakimlər Komitəsi tərəfindən təyin edilmiş hakimlər idarə edəcək |
| **MƏŞQÇİLƏR** | Komandanın məşqçisi olmadıqda qurumu təmsil edən nümayəndə məşqçi qismində iştirak edə bilər. |

| | |
|---|---|
| **PÜŞKATMA** | Püşkatma oyunlardan öncə keçirilir. |
| **LİSENZİYA №** | Tətbiq edilmir. |
| **İŞTİRAK HAQQI** | Yarışda iştirak haqqı tələb olunmur. |
| **YAŞAYIŞ** | Nəzərdə tutulmur. |
| **QİDALANMA** | Nəzərdə tutulmur. |
| **LƏĞV ETMƏ QAYDALARI** | **Aldatma və ya Fırıldaqçılıq:**<br>• Aldatma, fırıldaqçılıq, qadağan olunmuş proqramlardan istifadə və ya digər etik normaların pozulması faktları aşkar edildikdə.<br>**Oyun qaydalarının pozulması:**<br>• Çempionat iştirakçıları turnirin müəyyən edilmiş qaydalarını pozduqda.<br>**Qeyri-idman davranışı:**<br>• İştirakçılar təhqiredici, ayrı-seçkilik, fiziki və ya şifahi zorakılıq kimi qeyri-idman davranışı nümayiş etdirdikdə.<br>**Texniki nasazlıqlar:**<br>• Turnirin nəticələrinə təsir edə biləcək və ədalətli çərçivədə həll edilə bilməyən ciddi texniki problemlər olduqda.<br>**Təşkilatçıların tələblərinə əməl edilməməsi:**<br>• İştirakçılar çempionatın təşkilatçıları tərəfindən verilən qaydalara əməl etmədikdə.<br>**Əlavə hallar:**<br>• Turnirin keçirilməsinə ciddi təsir edən fors-major hadisələr kimi gözlənilməz hallar baş verdikdə. |
| **NƏQLİYYAT** | Nəzərdə tutulmur. |
| **AKKREDİTASİYA** | Tətbiq edilmir. |
| **BANK HESABI MƏLUMATLARI** | Tətbiq edilmir. |
| **YARIŞIN MENECERİ** | Elçin Qasımov |
| **MEDİA** | ARGİN-nin, AFFA-nın və AMF-nin Kütləvi İnformasiya Vasitələri üzrə Qaydaları tədbiq olunacaq. |
| **SOSİAL MEDİA** | Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi:<br>www.mys.gov.az/az<br>https://www.facebook.com/mysofficial<br>https://www.instagram.com/gencleridmannazirliyi |
| **TİBBİ XİDMƏTLƏR** | Yarış və məşq məkanında təcili ilkin tibbi yardım xidməti Gənclər və İdman Nazirliyi tərəfindən təşkil edilir. Yarış zamanı hər hansı bir xəstəlik və ya zədələnmə haqqında məşqçi və ya işçi qrupunun rəhbəri tərəfindən dərhal həkim heyətinə xəbər verilməlidir. |
| **TƏHLÜKƏSİZLİK XİDMƏTLƏRİ** | Yarış zamanı asayişin qorunması və təhlükəsizliyin təmin edilməsi məqsədilə Gənclər və İdman Nazirliyi tərəfindən mühafizə xidməti təmin edilir. |
| **NƏTİCƏLƏRİN HESABLANMASI SİSTEMİ** | Nəticələr təşkilat komitəsi tərəfindən və “sofascore” onlayn proqram tədbiqi üzərindən hesablanacaq. |

| | |
|---|---|
| **MÜKAFATLANDIRMA** | • Yarışda I, II, III yerləri tutmuş komandaların oyunçuları Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən kubok, diplom və medallarla təltif olunur.<br>• Turnirdə bombardir, ən yaxşı qapıçı, ən yaxşı oyunçu seçilərək təşkilatçı tərəfindən hədiyyələrlə mükafatlandırılacaq. |
| **TƏTBİQ OLUNACAQ QAYDALAR** | • Oyunlar AMF-nın minifutbol qaydalarına əsasən keçiriləcək.<br>• Oyunlar №5 topla keçirilir.<br>• Protokolda maksimum 25 futbolçunun adı və soyadı qeyd oluna bilər.<br>• Oyun zamanı meydançada maksimum 12 futbolçu və 1 məşqçi ola bilər.<br>• Komandaların start heyəti 6 nəfərdən ibarət olur: 1 qapıçı, 5 oyunçu.<br>• Oyun ərzində komanda 4 nəfər qaldıqda texniki məğlubiyyət verilir.<br>• İştirak ərizəsində adları göstərilməyən şəxslər oyunlar keçirilən zaman meydançaya və texniki zonaya buraxılmır.<br>• Son üç il ərzində AFFA bayrağı altında keçirilmiş Azərbaycan Misli Premyer Liqasında, Əvəzedicilər Liqasında, I və II Liqada, Futzal üzrə əsas Liqada, Futzal üzrə I Liqada, çimərlik futbolunda, Region Liqasında ötən və cari mövsümdə oynamış oyunçular turnirdə iştirak edə bilməz. Minifutbol üzrə 2023/2024, 2024/2025-ci illər mövsümdə oynayan oyunçular turnirdə iştirak edə bilməz.<br>• Komandalar oyunun başlamasına 30 dəqiqə qalmış oyun keçirilən meydanda olmalıdır.<br>• Oyun başlayarkən və ya bərpa olunarkən meydançanın mərkəzindən birbaşa qapıya zərbə qol kimi qeydə alınacaq.<br>• Aut yan xəttin üzərindən ayaqla başlanılır.<br>• Oyunçular idman formaları və idman ayaqqabıları ilə oyuna çıxmalıdırlar. Əgər idman forması eyni rəngdə olarsa, təşkilatçı tərəfindən fərqlənmə üçün üstlük veriləcək. Üstlüyü təqvimdə səfər komandası kimi göstərilən komanda geyinməlidir.<br>• Hakimə qarşı təhqir və ya aqresiv hərəkət edən şəxs hakim tərəfindən müvafiq qaydada cəzalandırılacaq.<br>• Hakim tərəfindən qırmızı vərəqə ilə cəzalandırılan oyunçu olarsa, komanda cəmi 2 dəqiqə azlıqda oynayır, 2 dəqiqədən sonra hakimin qərarı ilə və ya qoldan sonra ehtiyat oyunçulardan biri oyuna daxil olur.<br>• Oyun ərzində qırmızı vərəqə alan oyunçu bir daha oyuna dönməməli və texniki zonanı tərk etməlidir. Qırmızı vərəqə almış oyunçu istisna hallar (kütləvi dava, təhqir, çaxnaşma və s. istisna hallar ilə bağlı təşkilatçı qərar verir) çıxmaq şərti ilə növbəti oyunda iştirak edə bilər.<br>• Oyunların başlama saatında meydanda olmayan komandaya texniki məğlubiyyət verilir. Əgər hər iki komanda yoxdursa, hər iki komanda texniki məğlubiyyət verilir.<br>• Oyunlardan hər hansı birində komandalar arasında hesab razılaşması aşkar olunarsa, həmin oyunun nəticəsi sıfırlanır və danışılmış oyunlarda iştirak edən komandalar liqadan kənarlaşdırılır.<br>• Turnirdə oyunlar zamanı AFFA-nın İntizam Komitəsi tərəfindən sanksiya tətbiq edilmiş (AFFA bayrağı altında təşkil olunan |

| | |
|---|---|
| | yarışlarda iştirakdan məhrum edilmiş) oyunçular aşkarlanarsa, oyun hakim tərəfindən ləğv ediləcək və həmin komandaya texniki məğlubiyyət veriləcək.<br>• Turnirdə iştirak edən komandaların heyətləri mütəmadi olaraq yoxlanılacaq. Sifariş vərəqəsində adı olmayan, qurumu təmsil etməyən və ya başqa ad altında yarışda iştirak edən oyunçu aşkarlanarsa, oyunçunun iştirak etdiyi bütün oyunlara texniki məğlubiyyət veriləcək.<br>• Komanda ardıcıl 3 dəfə və ya ümumilikdə 5 dəfə oyuna çıxmaqdan imtina edərsə, turnirdən kənarlaşdırılır.<br>• Turinirdən kənarlaşdırılan komandanın bütün nəticələri ləğv edilir (komandan keçirdiyi oyunların 50% nisbəti hesablanır).<br><br>**Turnir cədvəlində xallar bərabər olarsa, turnir cədvəlindəki sıralama aşağıdakı ardıcıllıqla müəyyən olunur:**<br><br>- Komandaların keçirdikləri oyunların nəticələrinə əsasən<br>- Bütün oyunlarda vurulmuş və buraxılmış qolların fərqinə əsasən<br>- Bütün oyunlarda vurulmuş qolların sayına əsasən<br>- Komandaların qələbə saylarına əsasən<br>- Bütün oyunlarda buraxılmış qolların sayına əsasən<br>- Komandaların məğlubiyyət saylarına əsasən<br><br>**Oyun zamanı futbolçuların əvəzlənməsi aşağıdakı qaydada həyata keçirilir:**<br><br>- Oyunçuların əvəzedilməsi matçın protokolunda adları göstərilmiş futbolçularla limitsiz sayda heyata keçirilir.<br>- Oyun ərzində hər komanda limitsiz əvəzetmədən istifadə edə bilər.<br>- Oyuna daxil olan oyunçu texniki zonanın qarşısında tam mərkəzdən oyuna daxil olmalıdır.<br>- Oyunun baş hakimindən icazəsiz və ya qaydalara uyğun olmayan dəyişikliklər olarsa, həmin oyunçu hakim tərəfindən sarı vərəqə ilə cəzalandırılır.<br>Oyun zamanı əvəzlənmiş oyunçu meydançaya bir daha qayıda bilər. |
| **XÜSUSİ QEYDLƏR** | • Turnir ərzində qeydiyyatdan əlavə oyunçu keçirmək istəyən (limiti aşmamaq şərti ilə) və ya sifariş vərəqəsində oyunçu əvəzləmək istəyən komandalar "Play-off" mərhələsinin gözləməlidirlər.<br>• Oyunlar təyin olunarkən hava şəraiti nəzərə alınmır, meydançanın yararlılığı barədə qərarı yalnız oyuna təyin olunmuş hakim, oyun keçiriləcəyi vaxtdan ən az 1 saat öncə verir (bu halda oyunları təxirə salmaq hüququ hakimin müstəsna səlahiyyətindədir).<br>• İştirakçı komandalar ədalətli oyun "Fair Play" və "Respect" prinsiplərinə riayət etməlidirlər.<br><br>• **Yarış vaxtı iştirakçının şəxsiyyətini təsdiq edən sənədin üzərində olması mütləqdir.** |